

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 176 (24.313)

*26 sentyabr 2023-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

Qiyməti 30 qəpik

## Türkiyəni Türk dünyası ilə birləşdirən Naxçıvanda birlikdə olmaq məmnunluğu

### *Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasında rəsmi səfərdə olub*



Sentyabrın 25-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

Naxçıvan Beynəlxalq Hava Limanında Türkiyə dövlətinin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı qarşıladı.

* * *



Sentyabrın 25-də Naxçıvanda rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.

* * *



Sentyabrın 25-də Azərbaycana rəsmi səfərə gələn Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Naxçıvanda rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Türkiyə Prezidentinə raport verdi.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Türkiyə Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Türkiyənin və Azərbaycanın Dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Rəcəb Tayyib Ərdoğana, Türkiyə nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

* * *




Sentyabrın 25-də İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mərasimdə iştirak ediblər.

Dövlət başçıları İğdır-Naxçıvan qaz kəmərinin təməlini qoydular.

Qeyd edək ki, İğdır-Naxçıvan qaz kəməri Naxçıvanın qaz təchizatının şaxələndirilməsinə imkan verməklə onun bir mənbədən asılılığını aradan qaldırmış olacaq. 2020-ci il dekabrın 15-də Ankarada Azərbaycan və Türkiyə arasında İğdır-Naxçıvan qaz boru kəmərinin tikintisinə dair anlaşma memorandumu imzalanıb. Azərbaycan Prezidenti İlham Əliyevin 2022-ci il 10 fevral tarixli Sərəncamına əsasən isə İğdır-Naxçıvan qaz boru kəmərinin tikintisi üçün dövlət büdcəsindən vəsait ayrılıb. Layihə bu il iyunun 5-də qəbul edilən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın prioritet layihələri sırasında yer alıb.

Boru kəmərinin İğdırdan Sədərək rayonuna qədər uzunluğu 97,5 kilometr təşkil edir. Kəmərin Azərbaycan hissəsinin uzunluğu 17,5 kilometr, Türkiyə hissəsinin uzunluğu isə 80 kilometrdir. Boru kəməri gündə 2 milyon kubmetr, ildə isə 730 milyon kubmetr qaz ötürmək qabiliyyətinə malikdir ki, bununla da Naxçıvanın qaza tələbatı tamamilə ödəniləcək.

Gələcəkdə boru kəmərinin ötürücülük qabiliyyətini iki dəfədən çox artırmaq mümkündür.

* * *




Sentyabrın 25-də İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması mərasimindən sonra Azərbaycan-Türkiyə sənədləri imzalanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Qars-Naxçıvan dəmir yolu layihəsinə dair Niyyət Protokolu”nu imzaladılar.

“Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Türkiyə Respublikasının Kahramanmaraş vilayətində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzinin tikilməsi haqqında Əməkdaşlıq Sazişi”ni Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev və Türkiyə Respublikasının ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi naziri Mehmet Özhaseki imzaladılar.

“Azərbaycan Respublikasında və Türkiyə Respublikasında bərpa olunan enerji mənbələrindən istehsal olunan elektrik enerjisinin ötürülməsi sahəsində Azərbaycan Respublikasının Energetika Nazirliyi və Türkiyə Respublikasının Energetika və Təbii Sərvətlər Nazirliyi arasında əməkdaşlığa dair Anlaşma Memorandumu”nu Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov və Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar imzaladılar.

*Ardı 2-ci səhifədə*

Sentyabrın 25-də Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə dövlətimizin başçısı bəyanatla çıxış etdi.



**Prezident İlham Əliyevin bəyanatı**

– Əziz qardaşım.

Hörmətli qonaqlar.

Naxçıvana xoş gəlmisiniz. Sizi səmimiyyətlə salamlayıram.

Əziz qardaşım, bu Sizin Naxçıvana ikinci səfərinizdir və səfər zamanı imzalanmış sənədlər Türkiyə-Azərbaycan əlaqələrinin inkişafına xidmət göstərəcək.

İğdır-Naxçıvan qaz kəmərinin çəkilişi qardaşlıq münasibətlərimizin tarixində önəmli hadisədir və bizim əlaqələrimizə yeni təkan verəcək, Naxçıvanın enerji təhlükəsizliyini daha böyük ölçüdə təmin edəcək.

Naxçıvan Azərbaycanın qədim diyarıdır. Əfsuslar olsun ki, 1920-ci ildə sovet hakimiyyəti tərəfindən Qərbi Zəngəzur Azərbaycandan ayrılmışdır və beləliklə, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında coğrafi bağlantı kəsilmişdir. Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasətini aparmağa başlayanda Naxçıvana qarşı da onların ərazi iddiaları var idi. Burada da şiddətli döyüşlər gedirdi və məhz o vaxt Azərbaycanın böyük oğlu Heydər Əliyevin rəhbərliyi ilə, – o zaman o, Naxçıvanın başçısı idi, – Naxçıvan düşməni yerinə oturtdu və öz ərazisini qoruya bildi. Ancaq o vaxt Naxçıvanın enerji təminatı Azərbaycanın əsas hissəsindən olduğu üçün Ermənistan bütün elektrik və qaz xətlərini kəsmişdi və Naxçıvan faktiki olaraq mühasirədə idi. İşıq yox, qaz yox, qışlar da çox soyuq keçir və 15 il Naxçıvan qazsız yaşamışdır.

Ancaq 2005-ci ildə İran İslam Respublikası ilə imzalanmış anlaşmaya görə, mübadilə yolu ilə İrandan Naxçıvana qazın verilməsi təmin edilmişdir. İğdır-Naxçıvan qaz kəmərinin çəkilişi isə ikinci xətt vasitəsilə Naxçıvana təbii qazın verilməsinə şərait yaradacaq.

Bir neçə gündən sonra, daha doğrusu, üç gündən sonra Naxçıvanda Türkiyə və Azərbaycanın vəzifəli şəxslərinin, beynəlxalq təşkilatların iştirakı ilə Türkiyə-Azərbaycan III Enerji Forumu keçiriləcəkdir və əminəm ki, bu forumun nəticələri uğurlu olacaq. Naxçıvanın qazı, nefti olmasa da, günəşi var və Naxçıvanda günəş elektrik stansiyalarının inşası ilə bağlı bizim böyük planlarımız var. Bu planlar gerçəkləşərsə, Naxçıvan yaşıl enerji zonasına çevrilə bilər. Çünki burada həm günəş, həm külək, eyni zamanda su elektrik stansiyalarının inşası üçün böyük potensial var və gələcəkdə Naxçıvandan Türkiyəyə ən azı 1000 meqavat həcmində yaşıl enerji ixracı da mümkün olacaqdır.

Beş gün bundan əvvəl Azərbaycan öz suverenliyini tam təmin etmişdir. Əgər üç il bundan əvvəl İkinci Qarabağ müharibəsi nəticəsində biz işğala son qoymuşduqsa, bu il aprelin 23-də Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qoymaqla ərazi bütövlüyümüzü tam bərpa etmişdiksə, beş gün əvvəl biz suverenliyimizi tam təmin etdik, bərpa etdik. 24 saat ərzində, ondan da az müddətdə həyata keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz məskunlaşmış Ermənistan ordusu təslim oldu, bizim şərtlərimizi qəbul etdi və beləliklə, Azərbaycan öz dövlət suverenliyini tam təmin etmişdir.

Beş gün keçməsinə baxmayaraq, artıq Azərbaycandan onun Qarabağ bölgəsinə, orada yaşayan erməni əhalisinə humanitar yardımlar göndərilməsinə başlanmışdır. Yanacaq – neft, dizel, benzin, ərzaq məhsulları, dərman preparatları və digər humanitar yardım edilir və bu, bir daha onu göstərir ki, Qarabağ bölgəsində yaşayan insanlar milli mənsubiyyətindən asılı olmayaraq, Azərbaycan vətəndaşlarıdır, onların təhlükəsizliyi, hüquqları Azərbaycan dövləti tərəfindən təmin ediləcəkdir.

Bir neçə gün bundan əvvəl Qarabağ ermənilərinin nümayəndələri ilə Azərbaycanın dövlət strukturlarının nümayəndələri arasında Yevlax şəhərində görüş keçirilmişdir. Bu gün ikinci görüş keçirilir, onun nəticələri haqqında mənə hələ ki, məlumat verilməmişdir. Ancaq Qarabağda yaşayan erməni əhalisinin Azərbaycan cəmiyyətinə inteqrasiya prosesi, əminəm ki, uğurla gedəcək.

Əziz qardaşım, bu hadisə baş verəndə Siz Amerikada, Nyu-Yorkda idiniz, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasında iştirak etmişdiniz və orada dünyanın ən ali kürsüsündən Azərbaycan dövlətinin maraqlarını ifadə edən bəyanatlar vermişdiniz, ədalətli bəyanatlar vermişdiniz, tamamilə beynəlxalq hüquqa əsaslanmış bəyanatlar vermişdiniz: Qarabağ Azərbaycan torpağıdır. Bu həm həqiqətdir, eyni zamanda beynəlxalq hüquqa tam uyğundur. Eyni zamanda Türkiyə tərəfindən göstərilən növbəti qardaşlıq addımıdır. İkinci Qarabağ müharibəsi zamanı Siz və bütün Türkiyə xalqı bizim yanımızda idi. Müharibənin ilk saatlarında "Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır" deməyiniz bir çoxları üçün ciddi siqnal idi, mesaj idi. Azərbaycan xalqı bu siyasi və mənəvi dəstəyi heç vaxt unutmur və unutmayacaq.

İki il bundan əvvəl Şuşa şəhərində – uzun zaman davam edən işğaldan sonra azad edilmiş Şuşa şəhərində Şuşa Bəyannaməsi – müttəfiqlik bəyannaməsi bizim münasibətlərimizi yeni müstəviyə qaldırdı. Bu gün bu əlaqələr ən yüksək zirvədədir və bütün istiqamətlər üzrə biz indi əlaqələrimizin çox fəal dövrünü yaşayırıq. Bu gün təməlini qoyduğumuz İğdır-Naxçıvan qaz xətti, – vaxtilə biz Sizinlə TANAP layihəsinin təməlini qoymuşduq, TANAP boru xəttinin açılışını bərabər etmişdik, – bu gün isə Türkiyədən Azərbaycanın parçası olan Naxçıvana qaz kəmərinin inşası ilə bağlı işlərə start veririk. Qars-Naxçıvan dəmir yolunun inşasına dair Niyyət Protokolunun imzalanması da tarixi hadisədir. Əminəm ki, bu layihə də uğurla həyata keçiriləcək və beləliklə, Orta Dəhlizin bir qolu kimi həm Azərbaycana, həm Türkiyəyə, həm də digər ölkələrə xidmət göstərəcəkdir.

Biz bu gün Sizinlə, eyni zamanda Bakı-Tbilisi-Qars dəmir yolunun potensialının genişləndirilməsi ilə bağlı fikir mübadiləsi apardıq və mən Sizə məlumat verdim ki, yaxın aylarda bu yolun imkanları 1 milyon tondan 5 milyon tona qədər artırılacaq. Azərbaycanı Naxçıvan və Türkiyə ilə birləşdirən dəmir yolunun inşası da uğurla gedir. Azərbaycan ərazisində işlər böyük ehtimalla gələn ilin sonunda başa çatmalıdır. Yəni bütün bu tarixi layihələr bir daha onu göstərir ki, bizim dövlətlərimiz nə qədər bir-birinə bağlıdır, bir-birinə yaxındır. Biz bir-birimizə dəstək verməklə, eyni zamanda regional məsələləri də düz istiqamətə yönəldirik. Yəni bizim müştərək maraqlarımız ondan ibarətdir ki, bölgədə sülh olsun, əmin-amanlıq olsun, müharibələr olmasın, ölkələrin ərazi bütövlüyü təmin edilsin. Azərbaycana göstərdiyiniz dəstək həm İkinci Qarabağ müharibəsi zamanı, həm ondan əvvəl, həm də ondan sonra məhz bu məqsədə çatmaq üçün önəmli amildir.

Biz Azərbaycanda, həqiqətən, tarixi anlar, günlər, illər yaşayırıq. İkinci Qarabağ müharibəsi, tarixi Zəfərimiz, beş gün bundan əvvəl uğurlu əməliyyat nəticəsində suverenliyimizin bərpası tarixi hadisələrdir və haqlı olaraq bununla qürur duyuruq.

Bütün istiqamətlər üzrə, o cümlədən ticarət dövriyyəmizin artırılması istiqamətində önəmli addımlar atılmışdır. Bizim ticarət dövriyyəmiz keçən il 6 milyard dollardan çox olub. Ancaq bu ilin yeddi ayında 40 faiz daha artmışdır və əminəm ki, daha da artacaq. Düzdür, hədəf çox, yəni yüksək rəqəmlərlə ölçülür. Bir müddət bundan əvvəl 15 milyard dollar ticarət dövriyyəsi hədəfləmişdik. O zaman ticarət dövriyyəsi, təqribən, 2 milyard dollar idi. Amma indi 6 milyard dolları ötübdür, yəqin ki, yaxın gələcəkdə buna da çatacağıq. Preferensial ticarət anlaşması da imzalanmışdır və o siyahıda olan məhsulların sayı da artır. Ona görə əminəm ki, biz buna da uğurla çatacağıq.

Əziz Qardaşım, hörmətli qonaqlar, Sizi Naxçıvanda bir daha səmimiyyətlə salamlayıram. Sizə Azərbaycan xalqının hədsiz məhəbbət və sevgisini bir daha ifadə edirəm. Sizə və qardaş Türkiyə xalqına yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun.



***

Sonra Türkiyə Prezidenti bəyanatla çıxış etdi.

**Prezident Rəcəb Tayyib Ərdoğanın bəyanatı**

– Hörmətli Prezident, Əziz Qardaşım.

Xanımlar, cənablar.

Hörmətli mətbuat nümayəndələri.

Sizi öz adımdan və nümayəndə heyətim adından ən səmimi hisslərlə salamlayıram.

Prezident seçkilərindən sonra ilk səfərimi iyun ayında Şimali Kipr Türk Respublikası ilə birlikdə Bakıya etmişdim. Bu dəfə sizinlə Türkiyəni Türk dünyası ilə birləşdirən Naxçıvanda birlikdə olmaqdan böyük məmnunluq duyuram. 2008-ci ildəki son səfərimdən etibarən Naxçıvanın əldə etdiyi inkişafı qürurla müşahidə etdim. Naxçıvanın bugünkü səviyyəyə çatmasında böyük payı olan Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevi anadan olmasının 100-cü ildönümündə bir daha ehtiramla yad edirəm.

Türkiyə-Azərbaycan əlaqələri dünyada tayı-bərabəri olmayan müstəsna səviyyədədir. "Bir millət, iki dövlət" şüarı çərçivəsində əlaqələrimizi və əməkdaşlığımızı bütün sahələrdə gücləndirmək üçün fəaliyyətimizi davam etdiririk. İlham qardaşımla imzaladığımız Şuşa Bəyannaməsi əlaqələrimizi müttəfiqlik səviyyəsinə yüksəldən bir dönüş nöqtəsidir. Naxçıvan tarixboyu daşıdığı strateji əhəmiyyəti ilə Azərbaycanla əlaqələrimizdə xüsusi yerə sahibdir. Naxçıvan bu gün də iqtisadiyyat, nəqliyyat və enerji xətləri baxımından böyük potensiala malikdir. Regional nəqliyyat xətlərinin yaradılması ilə birlikdə bu potensialı tam mənasında həyata keçirmək imkanına sahib olacağıq.

Xəzər dənizindən keçən Beynəlxalq Şərq-Qərb Orta Dəhlizin əhəmiyyəti koronavirus pandemiyası və bölgəmizdə yaşanan müharibələr nəticəsində daha yaxşı dərk edilmişdir. Bu baxımdan bir qədər əvvəl təməlini qoyduğumuz İğdır-Naxçıvan qaz kəməri layihəsi Azərbaycan ilə enerji sahəsində ortaqlığımızı daha da dərinləşdirəcəyi kimi, Avropanın enerji təhlükəsizliyinə də töhfə verəcək. Qars-Naxçıvan dəmir yolu layihəsi ilə yanaşı, yaşayış binaları və elektrik enerjisi ilə bağlı müqavilələr bir az əvvəl imzalandı. Beləliklə, nəqliyyat, logistika və enerji sahələrindəki əlaqələrimizi inkişaf etdirməklə bağlı iradəmizi bir daha ortaya qoyduq.

Azərbaycanlı qardaşlarımıza 6 fevraldakı zəlzələlərin yaralarının sağalmasına verdikləri güclü dəstək üçün öz adımdan və millətim adından bir daha təşəkkür edirəm. Varını-yoxunu avtomobilinin üzərinə yükləyib millətimizə yardım etmək üçün yola çıxan qardaşlarımızın səmimiyyətini heç vaxt unutmayacağıq.

Mətbuata bəyanatlarımızdan sonra modernləşməsini həyata keçirdiyimiz Əbrpa-istehsalat hərbi kompleksinin açılışını edəcəyik. Bu layihə də müdafiə sənayesi sahəsində əməkdaşlığımıza ciddi töhfələr verəcək.

Hörmətli mətbuat nümayəndələri, son günlərdə bölgəmizdə kritik proseslər yaşandı. Azərbaycan İkinci Qarabağ müharibəsindən sonra keçən üç ilə yaxın müddətdə dəfələrlə ifadə etdiyi legitim və haqlı narahatlıqları ilə bağlı lazımi cavabı, təəssüf ki, tapa bilmədi, nəticədə, özünün suveren ərazilərində antiterror tədbirləri həyata keçirmək məcburiyyətində qaldı. Bu tədbirlərin son dərəcə qısa müddətdə, mülki şəxslərin hüquqlarına yüksək həssaslıq göstərilərək uğurla başa çatdırılması bizim üçün qürur mənbəyi olmuşdur. Tədbirlər zamanı şəhid olan qardaşlarımıza Allahdan rəhmət, yaxınlarına başsağlığı diləyirəm. Yaralılarımıza tezliklə şəfa tapmalarını arzulayıram.

Naxçıvanın görkəmli şairi, Mehmet Akifin əqidə yoldaşı mərhum Hüseyn Cavidin bir əsr əvvəl etdiyi bu duasının qəbul olunduğunu görməyin xoşbəxtliyini yaşadıq:

Hər bəladan əsirgə yurdumuzu,
Kamran eylə şanlı ordumuzu...

Müzəffər Azərbaycan Ordusunu həm tarixi qələbəsi, həm də mülki şəxslərə göstərdiyi humanist davranışı münasibətilə ürəkdən təbrik edirəm. Azərbaycanlı qardaşlarımız Türk millətinin ədalət və mərhəmətini bir daha bütün dünyaya göstərmişlər.

Son zəfərlə birlikdə bölgədə əhatəli normallaşma üçün yeni fürsət pəncərələri açılmışdır. Bu fürsətin dəyərləndiriləcəyinə inanıram. Ermənistanın ona uzadılan sülh əlini tutmasını və artıq səmimi addımlar atmasını gözləyirik. Hər zaman vurğuladığım kimi, sülhün uduzanı olmaz. Bölgəmizdə sülh, sabitlik və rifahın yaranması xalqlarımıza olan borcumuzdur. Biz bu borcu yerinə yetirməkdə qətiyyətliyik, səmimiyik. Arzumuz qarşı tərəfin də eyni səmimiyyəti göstərməsidir.

Bu düşüncələrlə Can Azərbaycanda olmaqdan duyduğum məmnunluğu bir daha ifadə edirəm. Mənə və nümayəndə heyətimə göstərilən qonaqpərvərlik üçün Prezident, qardaşım cənab Əliyevə və azərbaycanlı qardaşlarımıza bir daha təşəkkür edirəm. Rəbbim sevgimizi, qardaşlığımızı daimi etsin. Sağ olun.

*Ardı 3-cü səhifədə*






Sentyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Naxçıvan Bərpa-istehsalat hərbi kompleksinin açılışında iştirak ediblər.

Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov dövlət başçılarına raport verdi.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Naxçıvan Bərpa-istehsalat hərbi kompleksinin rəmzi açılışını bildirən lenti kəsdilər.



Məlumat verildi ki, hərbi kompleks müxtəlif növ tank, zirehli döyüş maşını və transportyorların, artilleriya qurğu və sistemlərinin, hava hücumundan müdafiə vasitələrinin, atıcı silahların, mühəndis texnikasının, rabitə avadanlıqlarının, optik cihazların təmiri və modernləşdirilməsi, müxtəlif növ daxiliyanma mühərriklərinin təmirini və stend üzərində yoxlanılmasını, qeyd olunan bütün vasitələr üzərində detal və avadanlıqların dəyişdirilməsini və test edilməsini həyata keçirmək imkanına malikdir. Hərbi kompleks 1 mərkəzdən, 8 təmir müəssisəsindən və 10 sahədən ibarətdir. Burada müxtəlif növ texnikaların təmiri və bərpası üçün 300-dən çox avadanlıq quraşdırılıb. Eyni zamanda idarəetmə, yataqxana və təminat binası inşa edilib.

Hərbi hissənin zirehli və avtomobil texnikaları parkında texniki nəzarət məntəqəsi, texniki qulluq və təmir məntəqəsi binaları, ümumi texnika tutumu 284 yer olan 4 saxlanc, yanacaqdoldurma, yuma və gündəlik texniki qulluq məntəqələri inşa olunub.

“Naxçıvan Mərkəzi Təlim-Tədris Sahəsi” taktiki və idman sahələrindən, atış, artilleriya, mühəndis, kəşfiyyat, rabitə, kimya və qarovul şəhərciklərindən ibarətdir. Kompleksə yüksək səviyyədə təchiz olunmuş idman şəhərciyi də daxildir.

* * *



Sentyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın şərəfinə rəsmi nahar verilib.

* * *

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasına rəsmi səfəri sentyabrın 25-də başa çatıb.

Naxçıvan Beynəlxalq Hava Limanında Türkiyə dövlətinin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı yola saldı.

**AZƏRTAC**

*2020-ci ildə – Vətən müharibəsində cəmi 44 gün ərzində Tarixi Qələbə qazanmaqla dünya hərb tarixinə öz zəfər möhürünü vuran Azərbaycan müharibədən ötən 3 il ərzində müdafiə qüdrətini, hərbi potensialını artırmaqla paralel olaraq siyasi, diplomatik, iqtisadi triumfları ilə də dünyada söz, nüfuz sahibinə çevrildi. Azərbaycan bu Tarixi Qələbə ilə BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını tələb edən, 30 il ərzində kağız üzərində qalan dörd qətnamənin icrasını hərbi-siyasi qüdrəti ilə özü reallaşdırdığı kimi, müharibə sonunda imzalanan üçtərəfli Bəyanatın reallaşdırılması məsuliyyətini və ağırlığını da öz üzərinə götürmüşdür. Belə ki, postmüharibə dövründə də ölkəmiz eyni siyasi prinsipiallıq və qətiyyətlə, bütövlükdə, Cənubi Qafqazda sülh və qarşılıqlı əməkdaşlığın qarantı missiyasını uğurla həyata keçirməkdədir.*

# Azərbaycan Cənubi Qafqazda sülhün, təhlükəsizliyin, tərəqqinin qarantına çevrilib

### *Sülhsevərlik etalonu*

Azərbaycan sülhsevər siyasətinə sadiq qalaraq, Cənubi Qafqazın lider dövləti kimi qalib və diktədən tərəf olaraq bədnam Ermənistana dəfələrlə sülh çağırışları etmişdir. Nəticə etibarilə, Brüsseldə, Soçidə, Moskvada, Vaşinqtonda, habelə digər şəhərlərdə keçirilən görüşlərdə Ermənistan qismən də olsa, sülhə meyillənməyə məcbur edildi. Lakin daxili erməni revanşist qüvvələri və Fransa kimi ikili standartlardan əl çəkməyən ermənipərəst dövlətlər, həmçinin qərəzli beynəlxalq təşkilatlar bu ölkəni sülh masasına oturmaqdan boyun qaçırmağa, yeni təxribatlar törətməyə sürükləyirdi. Prezident cənab İlham Əliyevin 20 sentyabr tarixdəki xalqa tarixi müraciətində də vurğulandığı kimi, Azərbaycan Cənubi Qafqazın sülh, təhlükəsizlik və əməkdaşlıq məkanına çevrilməsi üçün mühüm təşəbbüslər göstərir, lakin regionda marağı olan dairələr buna hər tərəfdən mane olmağa çalışırlar. 10 noyabr Bəyannaməsinin müddəalarından biri erməni silahlı qüvvələrinin Qarabağdan çıxarılması olsa da, Ermənistan buna riayət etməyərək müharibədən sonra da öz silahlı qüvvələrini Azərbaycan ərazisində saxlayır, onları maliyyələşdirir və hərbi texnika yardımı ilə dəstək göstərirdi. Qarabağda illərdir, 10 min qanunsuz erməni əsgərinin kök salmasının nəticəsidir ki, son zamanlar Ermənistan silahlı qüvvələri tərəfindən mövqelərimiz intensiv şəkildə atəşə tutulur, ərazilərimizin, xüsusilə də mülki təyinatlı yolların terror məqsədilə minalanması davam etdirilir, səfərbərlik, mühəndis-istehkam təkmilləşdirilməsi, kəşfiyyat tədbirləri, bir sözlə, döyüşə hazırlıq prosesləri aparılır, mənfur düşmən sanki kapitulyasiya rüsvayçılığını unutduğunu, yenidən keçmiş işğalçılıq xülyalarına qapıldığını sərgiləyirdi. Ermənistan silahlı qüvvələrinin Qarabağ iqtisadi rayonunda mövcudluğu 30 illik həsrətdən sonra işğaldan azad edilən ərazilərə coşqun həyatın yenidən qayıtdığı, dünyanı heyran qoyan sürət və enerji ilə bərpa-quruculuq işləri aparıldığı, əhalinin öz ata-baba yurdlarında min bir həvəslə yeni həyata başladığı, dövlətimizin müharibə deyil, asayiş və tərəqqi proseslərinə kökləndiyi bir dövrdə mülki vətəndaşlar və hərbçilərimiz üçün əsl təhlükəyə çevrilmişdi. Erməni separatçılarının Xocavənd rayonu ərazisində basdırdıqları tank əleyhinə minaya düşən iki avtomobilin partlaması nəticəsində 2 mülki şəxs və 7 polis əməkdaşının həlak olması, artıq Azərbaycanın öz ərazisində onun vətəndaşlarına qarşı törədilən mina terrorunun həddini aşması postmüharibə dövründə yüksək siyasi təmkin və dözümlülük göstərən Azərbaycanın səbrinin son damlasını daşırmış oldu. Regional sülh və sabitlik üçün ciddi təhlükə mənbəyi olan erməni terrorçu qruplaşmalarının tərk-silah edilməsi Azərbaycanın öz vətəndaşlarının təhlükəsizliyini qorumaq, konstitusiya quruluşunu, suverenliyini bərpa etmək baxımından qaçılmaz zərurətə çevrilmişdi.



### *Gün var əsrə bərabər…*

Tarix bir daha sübut etdi ki, idrakla gücün vəhdəti, güclü dövlət, milli həmrəylik, hərbi siyasi qüdrət olduqda xalqların, dövlətlərin sonrakı taleyini, müqəddəratını həll etməyə bir gün belə kifayət edir. Siyasi-tarixi əhəmiyyəti ilə əsrə bərabər sayılası bir gün… Sentyabrın 19-da Azərbaycanın başladığı antiterror əməliyyatları da milli tariximizə ən qısa zaman kəsiyində qazanılan qələbə səhifəsi olaraq yazıldı. Dövlət başçımız, Ali Baş Komandan cənab İlham Əliyevin də bəyan etdiyi kimi, Azərbaycan öz suverenliyini bərpa etdi. Həyata keçirilən antiterror tədbirləri nəticəsində 90-dan artıq döyüş mövqeyi, eləcə də bir neçə strateji əhəmiyyətli mövqelər Silahlı Qüvvələrimiz tərəfindən nəzarətə götürüldü. Bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycan Vətən müharibəsindəki Böyük Zəfərdən arxayınlaşmamış, sonrakı dövrdə də ordumuzun təkmilləşdirilməsinə, müasir silahlanma, yeni hərbi texnika ilə təchiz olunmasına, döyüş peşəkarlığının yüksəldilməsinə xüsusi diqqət göstərilmişdir. Son illərdə yaradılan müxtəlif təyinatlı yeni hərbi birliklər böyük hərbi peşəkarlıq, düzgün taktika nümayiş etdirərək dağlıq, meşəlik və yaşayış məntəqələrində müasir silah və texniki vasitələrdən istifadə etməklə qısa zamanda, minimum itki ilə Qarabağımızdakı terror yuvasını, kriminal xunta rejimini darmadağın etdi. Özü də buna mülki əhaliyə və infrastruktura zərər vurulmadan nail ola bildi. Prezident cənab İlham Əliyev də xalqa tarixi müraciətində hərbçilərimizin böyük qəhrəmanlıq, şücaət və peşəkarlığını yüksək qiymətləndirmişdir.

Sentyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xalqa qələbə müjdəli tarixi müraciətini diqqətlə nəzərdən keçirdikdə görərik ki, 24 saata yaxın lokal antiterror tədbirlərinin hər saniyəsi hərbi-strateji baxımdan zərgər dəqiqliyi ilə hesablanmışdı. Prosesə bilavasitə rəhbərlik və nəzarət edən Ali Baş Komandanın özünün də dediyi kimi, bu tədbirlər zamanı mülki insanların qorunması məsələsi ən mühüm prioritetlərdən biri kimi qarşıya qoyulmuşdu. Bu Azərbaycan humanizminin, beynəlxalq hüquqa,

*Ardı 4-cü səhifədə*

humanizm prinsiplərinə, demokratik ənənələrə sadiqliyin növbəti nümayişidir. Bu həm də erməni və ermənipərəst əleyhdarlarımızın sonrakı anti-Azərbaycan siyasi hücumlarını puça çıxarmaq, bədxah niyyətlərini gözlərində qoymaq demək idi. Nəticədə, bir gün əvvəl meydan oxumaq niyyətinə düşən separatçı qanunsuz birləşmə, təxminən, 24 saata darmadağın edilərək Azərbaycan tərəfinin şərtlərini qeyd-şərtsiz qəbul etməyə, ağ bayraq qaldırmağa məcbur edildi. Bu ağ bayraq siyasi mahiyyət etibarilə təkcə həmin separatçı qüvvələrin deyil, ümumilikdə, Ermənistanın, uzaqda, Avropada yerləşən bütün ermənipərəst havadarların təslim olmasının rəmzi idi. Qarabağın erməni sakinləri sentyabrın 21-də Yevlax şəhərinə vaxtilə boyun qaçırdıqları görüşə məğlubiyyət boyunduruğu altında, ağ bayraqla gəldi.

### *Dosta və düşmənə sözə sadiqlik örnəyi: “Bizim sözümüz imzamız qədər dəyərlidir!”*

Azərbaycan şərtləri qəbul olunduğu üçün hərbi tədbirləri dayandırdı, sentyabrın 20-də saat $13^{00}$-da atəşkəs elan edildi. Azərbaycan Respublikası Prezident Administrasiyasının dəvəti əsasında sentyabrın 21-də Yevlax şəhərində Qarabağın erməni sakinləri ilə görüş keçirildi. Konstruktiv mühitdə keçirilən, nəticə etibarilə, müsbət dəyərləndirilən, sonrakı effektiv danışıqların, görüşlərin təməli ola biləcək görüşdə Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında Qarabağın erməni əhalisinin reinteqrasiyası, infrastrukturunun bərpası və fəaliyyətinin təşkil olunması məsələləri üzrə müzakirələr aparıldı, qarşı tərəfə reinteqrasiya üzrə planlar təqdim edildi. Bir nüansa da diqqət etmək yerinə düşər ki, görüşdə sosial və humanitar xarakterli məsələlərin müzakirəsi kontekstində xüsusilə yanacağa ehtiyac duyulduğunu bildiriblər. Eyni zamanda qida məhsulları olmaqla humanitar yardımın göstərilməsini xahiş ediblər. Hər iki ölkəni, tərəfləri müqayisə etmək üçün yaranan paradoksal vəziyyət: bir tərəfdə güclü dövlətə, qüdrətli, dayanıqlı iqtisadiyyata malik Azərbaycan, digər bir tərəfdə öz ölkəsində baş alıb gedən qanunsuzluq, cinayətkarlıq, iqtisadi böhranlar, çətinliklər içərisində məhv olmaqda olan Ermənistan və onun “yaşatdığı” erməni sakinlər. Azərbaycanın Qarabağ erməniləri 30 il ərzində qondarma Qarabağ dövlətinin, “prezident”inin yağlı vədlərinə aldandıqları üçün bu qədər sosial problemlər içərisində boğulurdusa, Azərbaycan 3 ildir ki, işğaldan azad olunan ərazilərində dünyanı heyrətə gətirəcək dərəcədə sürətli və geniş miqyasda quruculuq işləri aparır. Təkcə bir faktı xatırladaq ki, Qarabağın və Şərqi Zəngəzurun bərpası prosesi mərhələlərə bölünüb. Böyük Qayıdış Proqramı qəbul edilib. Proqramın icrası üçün maliyyə resursları səfərbər edilib. İnfrastruktur və şəhərsalma məqsədləri üçün ilin sonuna qədər nəzərdə tutulan xərclər, təqribən, 7 milyard ABŞ dollarına bərabər olacaq. Özü də bütün bunları Azərbaycan heç kimdən asılı olmadan, öz daxili imkanları hesabına həyata keçirir. Bu özü dövlətimizin siyasi qələbəsi, iqtisadi qüdrətinin nümayişi idi ki, Qarabağda yaşayan ermənilər artıq normal həyata dönüş üçün yeganə nicat yolunun xunta hakimiyyətində, Ermənistanda və onların havadarlarında deyil, əsl həqiqətdə vətəndaşı olduqları, mənsub olduqları hüquqi dövlətdə axtarmalı olduqlarını dərk etməyə başlamışdılar.

Azərbaycan isə qarşı tərəfin tam əksinə olaraq sözünə sadiqliyini, mülki vətəndaşlarla deyil, yalnız terrorçular və separatçılarla mübarizə apardığını bir daha bütün dünyaya bəyan etdi. Qarabağdakı erməni sakinləri ərzaq, su və istiliklə təmin edilməyə başlanılıb, Ağdam-Xankəndi yolu ilə yanacaq göndərilib. Azərbaycanda fəaliyyətinə tam şərait yaradılan, yerli hökumət tərəfindən dəstək göstərilən Beynəlxalq Qızıl Xaç Komitəsi Qarabağa Laçın yolu ilə təkcə ötən şənbə 70 tonluq humanitar yardım daşındığını, tibbi təxliyə həyata keçirildiyini bildirib.

### *Blokada sitəmi, şoubazlıq, yoxsa Qafqazın barıt çəlləyi?*

Qarabağın hərbi birləşmələrinin döyüş mövqelərindən geri çəkilməsi antiterror əməliyyatının uğurlu nəticəsi kimi bir sıra mühüm siyasi həqiqətləri də gün üzünə çıxardı. Hərbi əməliyyatların dayandırılması ilə bağlı əldə olunmuş razılaşmalara uyğun olaraq Qarabağın silahlı qüvvələri Rusiya sülhməramlılarının nəzarəti altında silah və hərbi texnikanın təhvil verilməsini davam etdirir. Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri başa çatdıqdan sonra Müdafiə Nazirliyi sentyabrın 25-i saat $18^{00}$-a olan məlumata görə 797 atıcı silah və qumbaraatanlar, 42 artilleriya silahları, 165 HHM vasitələri, 175225 döyüş sursatları və digər silah və texnikalar müsadirə edilmişdir. Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bu günlərdə tərk-silah və demobilizasiyanın reinteqrasiya üçün əsas komponentlər olduğunu “X” sosial şəbəkəsində yazmaqla bildirib ki, Qarabağda üçgünlük tərk-silah prosesi göstərdi ki, bu bölgə işğal dövründə hərbi anbarların, toplanan silah-sursatın sayına görə dünyanın ən hərbiləşdirilmiş zonasına və bölgəmizin barıt çəlləyinə çevrilib.

Kriminal xunta rejiminin və onun havadarı Ermənistanın idarə etdiyi silahlanmaya, silah-sursat dolu kadrlara baxdıqca insanın bir anlıq damarlarında qanı donur: bütövlükdə insanlığın qəniminə çevrilən bu vandalların xalqımıza qarşı törədəcəyi daha böyük, dəhşətli faciələrin qarşısının alındığı üçün bir daha dövlət və ordumuzun qüdrəti ilə qürur duyursan. Bu silahlanmanın üzə çıxarılması “məzlum” ermənilərin humanitar məqsədli Laçın dəhlizindən hansı məqsədlər üçün istifadə etdiyini, haradan və hansı “humanitar yardım”ların buraya axışdığını, Laçın sərhəd-buraxılış məntəqəsinin fəaliyyəti ilə əlaqədar bölgədə “gərgin humanitar vəziyyət”in yaranma səbəblərini bir daha bütün dünyanın gözü önündə sərgilədi. Blokada sitəmi ilə fəryad edib aclıq aksiyasına qalxmanın, “Spayka” şousu göstərməyin, əslində, siyasi manipulyasiya olduğu bir daha ifşa edildi, ermənilərlə yanaşı onların Fransa kimi qahmarlarının da iç üzünü ortaya qoydu, sonrakı məkrli niyyətlərini heçə-puça çıxardı.

### *Sarsılmaz birliyin təzahürü*

Azərbaycanın lokal xarakterli antiterror əməliyyatı dünyada böyük rezonans doğurmaqla ölkəmizin daha bir əhəmiyyətli beynəlxalq siyasi qələbəsi olduğunu təsdiqlədi. Pakistanın Azərbaycanın ərazi bütövlüyünü və suveren ərazilərində həyata keçirdiyi legitim addımları dəstəkləməsi, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Nyu-Yorkda İsrailin Baş naziri Benyamin Netanyahu ilə görüşü zamanı Azərbaycanın ərazi bütövlüyünün qorunmasına verilən dəyər, Gürcüstan ictimaiyyətinin Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi antiterror tədbirlərini dəstəkləməsi, ISESCO-nun sabiq Baş direktoru, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü Əbdüləziz bin Osman əl-Tuveycrinin Prezident cənab İlham Əliyevə təbrik məktubu göndərməsi, bu hadisənin dünya mediasında geniş və obyektiv işıqlandırılmasını və digərləri bunun əyani sübutudur. BMT tribunasında Azərbaycanın antiterror əməliyyatlarına obyektiv münasibət isə, təbii olaraq, Azərbaycanın ən yaxın və sadiq tərəfdaşı Türkiyənin dilindən səsləndi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan BMT Baş Assambleyasındakı çıxışı zamanı ölkəsinin Azərbaycanın ərazi bütövlüyü naminə gördüyü tədbirlərə dəstək olduğunu bildirdi, Ermənistana başda Zəngəzur dəhlizinin açılması olmaqla verdiyi sözləri yerinə yetirməyə çağırış etməklə onların qeyri-stabilliyini, beynəlxalq hüquq prizmasında etimadsızlığını ali kürsüdən bəyan etdi. “Artıq hamının qəbul etdiyi kimi, Qarabağ Azərbaycan torpağıdır. Bundan başqa, bir statusun zorla qəbul etdirilməsi əsla qəbul olunmayacaq” qətiyyəti bir daha vurğulandı. Azərbaycan Prezidenti cənab İlham Əliyev isə sosial şəbəkə hesablarında paylaşımında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana təşəkkürünü ifadə etməklə bildirdi ki, ***“Siz də, mən də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin qardaşlığımızın rəmzi olan “Bir millət, iki dövlət” kəlamını daim yada salaraq Azərbaycan və Türkiyə arasında olan sarsılmaz birliyi yeni zirvələrə daşıyırıq”.***

### *Zəngəzur dəhlizinə doğru addım-addım…*

Azərbaycan cəmi bir gün ərzində qazandığı mühüm hərbi-siyasi uğuru ilə 3 il əvvəl Vətən müharibəsi nəticəsində kapitulyasiyaya uğradılan Ermənistana daha ciddi zərbə vurmuş oldu. Vaxtilə Azərbaycanla “şərt dili ilə danışan”, 44 günlük müharibədə qazanılan Tarixi Qələbə və dövlətimizin müharibədən sonrakı konstruktiv xarici siyasi xətti, informasiya strategiyasının düzgün müəyyənləşdirməsi nəticəsində Ermənistan artıq Qarabağın Azərbaycan ərazisi olduğunu etiraf edir. Ölkə başçımızın tarixi müraciətində də vurğuladığı kimi, hətta bizim ərazimizin ölçülərini də dilə gətirir. Azərbaycanın hərbi-siyasi uğuru – erməni silahlı qüvvələrinin Qarabağdan çıxarılması isə onu deməyə əsas verir ki, sıra 10 noyabr Bəyannaməsinin həllini gözləyən digər bir müddəasının – Naxçıvana çıxışın təmin edilməsinin reallaşmasına, Zəngəzur dəhlizinin açılmasına gəlib. Zəngəzur dəhlizi təkcə Cənubi Qafqazda yox, bütün Avrasiyada böyük əhəmiyyətə malik yeni kommunikasiya xəttidir. Onun istifadəyə verilməsi ilə tarixi Azərbaycan torpağı Zəngəzur Türk dünyasını birləşdirəcək. Zəngəzur dəhlizinin istifadəyə verilməsi, eyni zamanda Azərbaycanı regionun əsas nəqliyyat qovşaqlarından birinə çevirəcək, Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsilə həmin nəqliyyat dəhlizlərinə çıxışını təmin edəcək. Bu məsələ Azərbaycanın digər rayonlarını Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək baxımından çox böyük əhəmiyyətə malikdir. Bu dəhlizdə tək avtomobil yolu deyil, paralel olaraq Naxçıvanla birləşən keçmiş dəmir yolu bərpa olunacaq, boru və qaz kəmərləri açılacaq. Gələcəkdə bütün kommunikasiyaların məhz Naxçıvandan Türkiyəyə, oradan da Aralıq dənizi vasitəsilə digər Qərb dövlətlərinə çıxmaq imkanı yaradacaq. Beləliklə, Zəngəzur dəhlizinin açılması Azərbaycanın siyasi-strateji mövqeyini xeyli yüksəltməklə onun iqtisadi qüdrətini əhəmiyyətli dərəcədə artıracaq, eyni zamanda regional logistik mərkəz kimi Naxçıvanın da inkişafına mühüm təkan vermiş olacaq. Günü-gündən daha da ağırlaşan siyasi-iqtisadi tənəzzülü, hərbi məğlubiyyəti ilə məhvə məhkum olan Ermənistan isə normal siyasi-iqtisadi tərəfdaşlığa qayıtmaq naminə bu dəhlizin işə düşməsinin daha çox tərəfdarı olmalıdır. Lakin, təəssüf ki, Türk dünyasının bu uğurunu da həzm edə bilməyənlər hər vəchlə hələ də buna mane olmaqdadırlar. Ancaq dövlətimizin başçısının siyasi qətiyyətlə dediyi ***“Zəngəzur dəhlizinin açılması mütləq olmalıdır, Ermənistan bunu istəsə də, istəməsə də. Biz ortaya güclü iradə qoymuşuq, bütün işlər plan üzrə gedir. Bizim tələbimiz əsaslıdır və ədalətlidir. Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə bizim bağlantımız olmalıdır və olacaqdır”*** fikirlərinin reallaşacağı mütləq və labüddür.

Azərbaycan son siyasi-hərbi uğurları ilə erməni revanşistlərini, onun uzaqdakı havadarlarını siyasi təfəkkürdə, məfkurə və mənəviyyatda (təbii ki, əgər bunlar mövcuddursa) birdəfəlik kapitulyasiyaya uğratmaqdadır. Azərbaycanla ilə Ermənistanın dövlət sərhədində nəzarət-buraxılış məntəqəsinin qoyulması postmünaqişə dövründə mühüm mərhələdir. Ağdam-Xankəndi yolu Qarabağ iqtisadi rayonunda daxili şəbəkədir və bu baxımdan da vacib nəqliyyat xəttidir.

Avqustun 16-da BMT Təhlükəsizlik Şurası (TŞ) İrəvanın təklifi ilə Azərbaycanın Qarabağ bölgəsini Ermənistanla birləşdirən Laçın dövlət sərhədindən buraxılış məntəqəsinin, guya, “bağlanmasından” sonra yaranmış “humanitar böhran”ın müzakirəsi üçün keçirilən iclasda ermənilərin “humanitar fəlakət”, “soyqırımı” və “etnik təmizləmə” kimi uydurduğu yalanların dünyanın ən mötəbər qurumunda birmənalı şəkildə ifşa edilməsi Ermənistanın, sözün əsl mənasında, diplomatik fiaskoya uğraması demək idi.

Azərbaycanın həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlər nəticəsində siyasətdə qeyri-müəyyənlik və qeyri-stabillik, müəyyən vaxt əldə etməyə nail olub yenidən düşmən mövqe sərgiləyən Ermənistanı daha bir siyasi kapitulyasiyaya uğratdı. Bunun ən real nümunəsi Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun BMT-nin Təhlükəsizlik Şurasında çıxışı zamanı iclas zalını tərk edən Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın demarşı – beynəlxalq aləmin ədalət mühakiməsindən yayınması, utancverici siyasi rəzalətə tab gətirə bilməməsidir. Bir faktı da xatırlatmaq yerinə düşər ki, Azərbaycan Daxili İşlər Nazirliyinin verdiyi məlumata görə, Qarabağda yaşayan ermənisilli sakinlərdən Azərbaycan vətəndaşlığı almaqla bağlı müraciət edənlərin sayı artmaqdadır. Artıq onlar arasında güclü, etibarlı, vətəndaşının konstitusiya hüquqlarını təmin edə biləcək, yağlı vədlərlə aldatmayıb real dinc yaşayış şəraiti yaradacaq dövlətə sığınmaq meyillərinin yaranması da siyasi qələbəmizin bir faktorudur. Ən əsası isə Ermənistan tərəfindən Azərbaycanın ərazi bütövlüyünün tanınması sülh sazişinin bağlanmasını reallaşdıracaq daha bir addım oldu. Qarşıda isə Azərbaycan Prezidenti cənab İlham Əliyevin bəyan etdiyi strateji hədəflər var: ***“İkinci Qarabağ müharibəsi başa çatanda mən demişdim, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik və çevirirk, hər gələn insan onu görür. Eyni şəraiti biz Xankəndidə, Ağdərədə, Xocavənddə, kəndlərdə yaradacağıq, Əsgəranda yaradacağıq”.***

Dövlət başçımız xalqa növbəti tarixi müraciətində dünyada qazandığı qalib və qətiyyətli siyasi lider nüfuzuna söykənərək Cənubi Qafqazın sülh və inkişaf konsepsiyasını açıqladı, sülhə, təhlükəsizliyə, birgəyaşayışa, insanlığa və gələcəyə doğru hədəfləri bəyan etdi: ***“Mən ümid etmək istəyirəm ki, bizim atdığımız addımlar və antiterror tədbirlərinin nəticələri imkan verəcək ki, nəhayət, sülh danışıqları üçün olan, Ermənistan tərəfindən qoyulan, verilən, təklif olunan, necə adlandırırsınız adlandırın, manea aradan qalxa bilər. Bu, Cənubi Qafqazda yeni reallıq yaradacaq, uzunmüddətli sülh yaradacaq… Biz təklif edirik ki, Cənubi Qafqaz ölkələrinin gələcəyi sülhə, əmin-amanlığa, inkişafa söykənsin. Biz təklif edirik ki, bölgəmizdən uzaqda yerləşən, ancaq öz siyasi gündəliyini güdən və erməni xalqından bir alət kimi istifadə edən, onları istismar edən və dar gündə onları, necə deyərlər, satan qüvvələr, saxtakarlar, əl çəksinlər bizdən. Dünyanın o başında oturub bizə qarşı əsassız ittihamlar irəli sürənlər əl çəksinlər bizdən, qoysunlar Cənubi Qafqaz rahat nəfəs alsın. Bu bölgə əsrlər boyu davalar, savaşlar, qanlı toqquşmalar məkanı olmuşdur. Yetər artıq!”*** Bu həm də Azərbaycan Prezidentinin hələ 2022-ci ilin oktyabrında Gürcüstana səfəri zamanı regional əməkdaşlığın üçlü Qafqaz formatını, yəni “Qafqaz evi” ideyasının reallaşdırılması istiqamətində atılan real addım idi.

*Azərbaycan Müstəqilliyin Bərpası Günü ərəfəsində öz suverenliyini, tarixi ədaləti bərpa etməklə dövlətçilik tariximizə yeni qalibiyyət möhürünü vurdu. Bu qələbə nəticəsində Azərbaycan Ümummilli Liderimiz Heydər Əliyevin yüzillik yubileyini ən layiqli töhfə ilə – Dahi Azərbaycanlının Qarabağlı Azərbaycan ideyasını, vəsiyyətini gerçəkləşdirməklə qeyd etdi. Xalqımız Ata vəsiyyətinə, siyasi irsə sahibliyin daha bir örnəyinə şahidlik etdi. Bu, Azərbaycanın ərazi bütövlüyü, dövlət müstəqilliyi uğrunda şərəfli mübarizədə canlarını fəda etmiş bütün şəhidlərimizin xatirəsinə böyük ehtiram abidəsi idi. Bu həm də Prezident cənab İlham Əliyevin ölkəmizə rəhbərliyinin 20 illiyinin tamamında siyasi fəaliyyətində nəyi, necə, nə vaxt etmək lazım olduğunu bilmək siyasi müdrikliyinin, siyasi liderliyinin zirvəsi oldu:* ***“…o gün uzaqda deyil – Azərbaycan və Ermənistan öz aralarında olan məsələləri tənzimləyəcək, sülh müqaviləsi imzalayacaq və Cənubi Qafqaz ölkələri üçtərəfli formatda gələcək əməkdaşlıq haqqında işləməyə başlayacaqlar. Ancaq bununla bərabər, onu da bildirməliyəm ki, bizə xor baxanlar, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt, heç vaxt unutmasınlar ki, “dəmir yumruq” yerindədir və hər zaman yerində olacaq! Heç kim bizimlə diktat və ultimatum dilində danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!”***

✍ **Mehriban SULTAN**
*Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti*

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

www.serqqapisi.gov.az

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 575